Azərbaycan Respublikası
Milli Elmlər Akademiyası
BOTANİKA İNSTİTUTU
Bakı Badamdar şosesi 40
Tel: 502-43-94
№ 31/23
07 iyun 2017

**"SINAM" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru cənab Əbülfət Rəhmanova**

Azərbaycan Respublikası AMEA Botanika İnstitutunda
"FARABI" (BTMMN) layihəsi çərçivəsində tətbiq olunan
"SERP" proqram təminatına dair

# RƏY MƏKTUBU

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin layihəsi çərçivəsində yaradılan SERP sistemi (müəssisə resurslarının idarə edilməsi) bir ildən artıqdır ki, AMEA Botanika İnstitutunda tətbiq edilir.

İşin təşkili və idarə edilməsi tam olaraq sistemdə əhatə edilmişdir. Bu sistem milli mühasibat uçotu standartlarına uyğundur, beləki SERP sistemi dövlət qanunvericiliyi, əmək-vergi məcəllələri və müxtəlif icra təlimatları əsasında qurulmuşdur. Mühasibat uçotu üzrə olan dəyişiklik və yeniliklər SINAM şirkəti tərəfindən operativ olaraq sistemdə yenilənir.

Sənədləşmələr SERP sayəsində yazılı formadan elektron formata keçirilmiş, Mühasibatlıq və Kadrlar şöbəsinin işləri sistemin institutumuzda tətbiqi nəticəsində asanlaşmışdır.

Eləcədə Kadrlar və Mühasibatlıq şöbələrimiz arasında sənəd dövriyyəsinə ehtiyacı aradan qaldırılmışdır. Bununlada əlavə sənəd kütləsinin yığılmasına ehtiyac qalmır.

SERP-in əsas üstün cəhətləri - silinmiş məlumatların belə asanlıqla bərpa edilməsi və bütün məlumatların bazada toplanılması, bazaya daxil olub istənilən məlumatı daha qısa vaxt ərzində və dəqiqliklə əldə edə bilməkdir.

Sistemin yaradıcısı olan SINAM şirkəti mütəmadi olaraq milli mühasibat uçotunda hər hansı dəyişiklikləri son dərəcə operativ olaraq sistemə daxil edir.

Kadr hesabatları, Baş kitab, Dövriyyə cədvəlləri, Memorial orderlər, dövri Maliyyə hesabatları, DSMF hesabatları, Statistik hesabatlar daxil edilmiş informasiya əsasında tam avtomatik şəkildə əldə edilir.

Bu sistem vasitəsilə idarə edən təşkilat olaraq işimizi sistemdə təşkil etmiş və müəssisəmizin bu sistemdən istifadəsinin daimi olmağını arzulayırıq.

**Baş mühasib:** **D.Q.Şahkərimova**